# DOĞRU DÜŞÜNCƏ, DOĞRU ƏMƏL, DOĞRU SÖZ HƏR ZAMAN MİLLİ MƏNƏVİ DƏYƏRLƏRİMİZ SIRASINDADIR

*Əyyub Teymur oğlu Əzizov 12 avqust 1934-cü ildə Qərbi Azərbaycanın Zəngibasar rayonunun Mehmandar kəndində anadan olmuşdur. 1948-ci ildə Qərbi Azərbaycandan respublikamızın Ağcabədi rayonuna deportasiya edilmişdir. 1953-cü ildə həmin rayonun Xəlfərəddin kənd orta məktəbini bitirmişdir. 1953-57-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) Təbiət və kimya fakültəsində təhsil almışdır.*

*1957-1961-ci illərdə Ağcabədi rayonu Xəlfərəddin kənd orta məktəbində müəllim işləmişdir. 1967-ci ildə namizədlik dissertasiyasını müdafiə etmişdir.*

*1969-cu ildən Azərbaycan Dövlət Universitetində (indiki BDU) çalışır. 1987-ci ildən bu ali təhsil ocağının Kimyanın tədrisi metodikası kafedrasına rəhbərlik edir.*

*200-dən çox elmi və metodiki məqalənin, iki dərsliyin və altı dərs vəsaitinin müəllifidir. Magistr hazırlığı üçün "Kimyanın tədrisi metodikası" fənnindən 30, həmçinin "Kimya müəllimliyi" üçün və bakalavr pilləsinə aid 6 proqram hazırlamışdır. BDU-nun Böyük Elmi Şurasının üzvüdür. Azərbaycan Respublikasının Əməkdar müəllimidir.*

*2000-ci ildən UNESCO-nun professoru adına layiq görülmüşdür. 1 may 2013-cü ildən etibarən Beynəlxalq Ekoloji Akademiyasının həqiqi üzvü seçilmişdir.*

*"Tərəqqi" medalı ilə təltif edilmişdir. Yeni Azərbaycan partiyasının üzvüdür.*

**—Əyyub müəllim, Siz 60 ilə yaxın bir müddət ərzində öz həyat və fəaliyyətinizi kimya elminin tədqiqinə və onun tədris olunmasına həsr etmiş nadir ziyalılarımızdansınız. Niyə məhz kimyanı seçdiniz?**

—Kimya elmi dünyəvi, həm də əsas fundamental elmlərdən biridir. Bundan əlavə, kimya elmi həm canlı, həm də cansız həyat deməkdir. İnsan bədəninə nəzər salsaq görərik ki, o, başdan ayağa kimyadır. Eyni zamanda təbiətin özü də başdan ayağa kimyadır. Belə bir sahəni sevməyən, onunla daha yaxından tanış olmaq arzusunda olmayan az insan tapılar.

*Dünyada nə qədər iş var, sənət var,*
*Birindən yapışar aqil adamlar...*
*Hər kəs öz yerini tutsa həyatda,*
*Sanki xəzinə var başının altda!*
*Könül verdiyin ucaldar səni,*
*Könül vermədiyin qocaldar səni.*
*Zəhmətə arxalan, işə güvən sən,*
*Budur tərəqqinin sonu əzəldən!*

Ümumiyyətlə, kimya elminə maraq məndə orta məktəbdən yaranmışdır. 1948-ci ildə ailəmiz İrəvandan gələndə mənim 14 yaşım vardı. Oxuduğum məktəbdə Məcid müəllim kimyadan bizə dərs deyirdi. O, bu elmə o qədər vurğun idi ki, məktəbə aparan yolda bizə qarın üstündə kimya elementləri yazmağı tövsiyə edirdi. Beləliklə, kimya elminə ilk məhəbbəti məndə Məcid müəllim oyatmışdı. Onuncu sinifdə oxuyanda mənim kimya fənni üzrə ikinci müəllimim İdris müəllim oldu. O, mənim bu elm sahəsinə olan həvəsimi daha da artırdı. Və artıq qəti qərara gəlmişdim ki, kimyaçı olacam.

1953-cü ildə Pedaqoji İnstituta daxil oldum və bu ali təhsil ocağının Təbiət və kimya fakültəsini 1957-ci ildə bitirdim. Gənc mütəxəssis kimi oxuduğum orta məktəbə təyinat almışam, dörd il orada çalışmışam, bundan sonra isə Elmlər Akademiyasının aspiranturasına daxil olmuşam.

**—Ailənizdə kimsə kimya elmi ilə məşğul olubmu?**

—Xeyr. Atam da, anam da kolxozçu olublar. Onlar mənim qibləgahım olub, uşaqlıqdan həm cismim, həm canım onlarla bağlı idi. Atam Əzizov Teymur Kərim oğlu 1885-ci ildə Qərbi Azərbaycanın Zəngibasar rayonunun Mehmandar kəndində doğulub. Kəndin sayılıb-seçilən igidlərindən olub. Heç kimə boyun əyməyən, qolu qüvvətli, köməksizlərə əl tutan, qoçaq, çətinlikdən qorxmayan, əməksevər bir kişi olub. Anam Əzizova Sara Məsim qızı 1889-cu ildə anadan olmuşdur, həyat yoldaşına layiq qeyrətli qadın olub. Hər ikisi kolxozda işləməklə üç övlad - iki oğul, bir qız boya-başa çatdırıb, ev-eşik qurublar.

**—Nədənsə belə qəbul olunub ki, elmlə dərindən məşğul olan adamlar daha çox ateist olurlar. Ancaq son zamanlar müşahidə edirik ki, müqəddəs kitablarda, xüsusilə də "Qurani Kərim" vasitəsilə insanlara verilən elmi biliklər alimlər tərəfindən sanki yenidən kəşf olunur, müasir elmi araşdırmalar nəticəsində maddi dünyamızda öz təsdiqini tapır...**

—"Allahın adı ilə başlanan hər iş, həmişə yaxşı nəticə vermiş! Mən də Sənin adınla bağladım bunu, ya Rəbbim xəcalətli etmə qulunu..." Uca Tanrımız sanki bütün kainat qədər əzəmətli bir bina qurubdur. Kainatın yaranışını tədqiq edən və Yaradanın mövcudluğuna inanmayan alimlər ahıl yaşlarında başa düşürlər ki, dünyanı ərsəyə gətirmiş gözəgörünməz böyük bir qüvvə var. Onun saysız-hesabsız möcüzələri var.

Götürək sualtı aləmi. Bəziləri düşünür ki, suyun dərin qatlarında oksigen yoxdur. Dünya okeanlarının üst qatında yüz qırx trilyon tona yaxın karbon qazı həll olubdur, bu proses indi də davam edir. Karbon qazının okeanlar tərəfindən həll edilməsi nəticəsində karbonat turşusu əmələ gəlir, sonra isə zəif turşu olduğundan parçalanır. Səkkiz trilyon tona yaxın isə oksigen həll olur. Sualtı canlılar həmin oksigendən istifadə edir. Bu heyvanların, balıqların, bitkilərin rənginin əmələ gəlməsi elmi möcüzə olmaqla yanaşı həm də qanunauyğun, dərk edilməli bir prosesdir. Elmi cəhətdən biz bu prosesin necə baş verdiyini tam dəqiqliklə təsvir edə bilirik, ancaq razılaşın ki, bu, sözün əsl mənasında möcüzəli bir prosesdir. Yaradana inanmayan bir çox böyük alimlər həyatlarının sonuna yaxın öz yanlışlıqlarını anlamış, bunu etiraf etmişlər. Lakin Allahı yalnız son məqamda, ahıl vaxtında, yaxud təkcə dara düşəndə dərk etmək, ondan kömək istəmək düzgün deyil, sağlam, gümrah olduğun dövrdə, arxayın zamanında da onun müqəddəs adını çəkmək lazımdır.

Yaranan məqamdan başlayaraq insan bədənində Uca Tanrının ilahi qüdrətini görmək bir o qədər də çətin deyil. Misal üçün, hemoqlobini götürək. Hemoqlobin olmasa insanın yaşaması qeyri-mümkündür. Çünki orada dörd ədəd pirrol radikalı var. Hər bir pirrolun oturacaq hissəsində - ikisinin oturacağı aşağıda, ikisinin oturacağı yuxarıda olur, - hərəsində bir ədəd azot var. Dördünün ortasında bir atom dəmir var. Fikir verin, birinci ilə üçüncü koordinativ rabitədir, dördlə iki - ion rabitəsi. Hərəsində bir ədəd metil radikalı var. Birinci ilə dördüncüdə etilen radikalı var. İkinci ilə üçüncüdə propion turşusu var. Onları metin körpüsü deyilən CH rabitəsi birləşdirir, onun da insan tərəfindən əldə olunması qeyri-mümkündür. Bu, Uca Tanrının insan bədənində yaratdığı möcüzələrdən yalnız biridir. Bütün bunlar olmasa, insan tənəffüs edə bilməz.

İnsan hörmət etdiyi, istədiyi bir insanı görəndə sevinir. Bu, necə baş verir? Serotanin deyilən bir maddə var. O, insanın beynində əmələ gəlir. Bir saniyə ərzində insan bədənində yüz minə yaxın kimyəvi reaksiya baş verir. İnsanın beyin qabığında on altı milyard sinir hüceyrəsi var. Onlardan hər biri ayrı-ayrılıqda iyirmi min başqa sinir hüceyrələri ilə neyron və dendrid toru vasitəsilə birləşir. Beləliklə, insanın beyin qabığında olan sinir hüceyrələrinin sayı Yer kürəsində olan molekulların sayından da çoxdur. Bütün bunlardan sonra dediklərimin, yəni təsvir etdiyim bu nəhəng və son dərəcə mürəkkəb proseslərin, sistemin təsadüf, yaxud idarəolunmaz bir proses nəticəsində əmələ gəldiyini söyləmək nə dərəcədə ciddi olar?



**—Əyyub müəllim, kimya elminin dünya miqyasında böyük fayda verdiyi hansı kəşfləri qeyd edərdiniz?**

—Bilirsinizmi, elm həmişə inkişaf edir. Bir də elmin vətəni yoxdur. Alimin vətəni də elmdir. Elm olmasa, insan həm fərd baxımından, həm də cəmiyyət olaraq inkişaf edə bilməz. Kimyanın bütün sahələri faydalı və xeyirlidir. Məsələn, Əbu Əli İbn-Sina 980-ci ildə doğulub, o, efir yağlarını, xlorid turşusunu, nitrat turşusunu, sulfat turşusunu, kalium hidroksidi, natrium hidroksidi və s. kəşf etmişdir. Sual olunur: bəs oksigen necə yaranır? Bu suala cavabın bir qismini mən okeanlarda baş verən prosesi təsvir etdikdə qeyd etmişdim. İndi isə quruda baş verən proseslərdən birinə nəzər salaq. İynəyarpaqlı şam ağaclarında lemonen, pnen, karen, betakaren kimi maddələr var. Onların hamısının tərkibi eynidir, ancaq quruluşları müxtəlifdir. Həmin lemonendə birinci karbonla ikinci karbon arasında bir ədəd ikiqat rabitə var. Həmin maddə əmələ gəlir, oksidləşir və peroksid əmələ gəlir. Diqqət yetirin, təbiətin özündə peroksid əmələ gəlir. Həmin peroksid zəif olduğu üçün parçalanaraq atom halında oksigenə, bir də onun özünün oksidinə çevrilir. Atom halında oksigen atmosferdə olan oksigeni oksidləşdirir və ozona çevirir. Beləliklə də ozon yaranır. İldırım çaxanda da ozon təbəqəsi əmələ gəlir. Ancaq öz yolunu azmış insanlar silah düzəldərək ozon təbəqəsini dağıdan raketlər buraxırlar. Onlardan bir neçəsinin adını çəkə bilərəm - proton, ştal, saturn. Saturn raketi atmosferdəki ozon təbəqəsini diametri min kilometrə çatan sahədə dağıdır. Bunun yeganə adı belədir: həyatı məhv etmək. İnsan nə edərsə, özünə qismət olar. İndi ermənilər gəlib bizim torpaqlarımızı işğal edib. Bizim çörəyimizi yeyib, sonra da torpaqlarımızı zəbt ediblər. Niyə? Yəni insan zəhər düzəldirsə, həmin zəhər ona qarşı çevrilir. Silah düzəldirsə - silah onun özünə qarşı çevrilir. Gec, ya tez ermənilərin xalqımıza qarşı törətdikləri bəşəri cinayətlər, ağlasığmaz sonda özlərinə qayıdacaq.

**—Əyyub müəllim, erməni məsələsinə toxundunuz... Azərbaycan xalqı neçə yüzilliklər boyu ermənilərin iyrənc siyasəti nəticəsində ağır faciələr yaşayıb. Xüsusilə də Qərbi Azərbaycanlıların bir neçə dəfə öz doğma torpaqlarından deportasiya olunması heç bir ədalətə sığan deyil. Ümumiyyətlə, onların xalqımıza qarşı işləyən ideoloji və qanlı əməl maşını heç zaman dayanmayıb...**

—Bütün bunlar haqqında danışmaq mənim üçün çox ağırdır. Məsələ burasındadır ki, mən qeyd etdiyiniz bu hadisələrin canlı şahidiyəm, ermənilərin xalqımıza qarşı yeritdiyi bu mənfur siyasətin bütün dəhşətlərini ailəm yaşayıb, bunlar gözümün qabağında baş verib. On dörd yaşım vardı. Azərbaycandan Qərbi Azərbaycana, bizim kəndə bir nəfər gəlmişdi. Kənd əhalisi qarşısında çıxış edərək demişdi ki, sizi Sibirə, Orta Asiyaya aparmaq fikrindədirlər, ancaq biz istəyirik ki, siz Azərbaycana gələsiniz. Ermənilər o zaman hamını, hətta o vaxtkı Azərbaycan rəhbərliyini də aldatmışdı. Ermənilərin xisləti belədir ki, onlar fırıldaqçı, çörək itirəndilər, bir sözlə, hamıya, xüsusilə də Azərbaycan xalqına həmişə düşmən gözü ilə baxıblar...

Atamla qardaşım İrəvana getmişdilər, bacımın yanına. Saat dörddə erməni milis nəfərləri gəldi. Azərbaycanlılar kənddən çıxmışdı, bircə bizim ev qalmışdı, atamı gözləyirdik ki, İrəvandan qayıtsın. Gəlib çıxmadılar. Milis nəfərləri bizi evimizdən çıxarmaq istəyirdilər. Ailə təsərrüfatımzda yeddi camış saxlayırdıq, birinin də balası vardı. Bir maşın ot yığdım, camış balasını qoydum ora. Mən, anam, bibim, bacım, əmim qalmışdıq. Kəndimizdən ən axırıncı çıxan da mən olmuşdum. Kəndimizin kənarında Zəngi çayı axırdı. Camışlar tökülüşdülər həmin çaya. Mən yaxşı üzməyi bacarırdım, özümü atdım çaya, onları çıxardım və gətirdim yük vaqonuna. Otu da ora yığdım, camışları da ora saldım.

Qatar əvvəl Naxçıvanda saxladı. Zülmlə, əziyyətlə uzun yol qət etmişdik. Əvvəl qohumlarımızla görüşdük, hamı ağlaşırdı. Sonra da böyük çətinliklərlə bizi Ağcabədi rayonuna gətirdilər və orada yerləşdik. Bizimlə yanaşı ən azı min ailə də bu rayona köçdü. Təsəvvür edin, on, hətta on beş uşaqlı ailələr var idi. Ağcabədi əhalisi bizi öz doğmaları kimi qarşıladı, bir nəfərimiz də çöldə qalmadı, hamıya yer verdilər. Bütün ailələr evlərdə yerləşdirildi. Deportasiya edilən həmin insanlar həm mənəvi, həm də fiziki sıxıntılarla o qanlı-qadalı, amansız illəri yaşadı.

Mən öz ailəmin və bizimlə birgə deportasiya olunmuş insanların zülmünü görmüşəm. Bilirsiniz, ermənilər Azərbaycan ailəsinə nə qədər zülm verdilər? Erməni millətinin "milli" xəstəliyi var. Ona erməni xəstəliyi deyirlər. Yer kürəsində erməni millətindən başqa heç bir millətdə bu xəstəlik yoxdur.

**—Bu günə qədər həyatınızda baş verənlərdən nəyi dəyişərdiniz, nəyi olduğu kimi saxlayardınız?**

—Səxavəti, ədaləti, dostluğu, məhəbbəti, insanın insana olan etimadını, etibarı, tərbiyəni, iffəti, cəsarəti, cürəti və ədəbi saxlayardım. Təəssüflər olsun ki, çağdaş dövrümüzdə, etibarsızlıq daha çox yayılıb, ədəb, ərkan, əqidə, gənclərin bir-birinə etibarı, səmimiyyəti, eləcə də insanlara inam çox azdır.

Götürək "dost" sözünü. Dost sözü dörd hərfdən ibarətdir, "D" - dəmir, dostluq dəmir kimi möhkəm olmalıdır, "O" - od, dostluqda istilik, hərarət olmalıdır: "S" - su, dostluq su kimi pak olmalıdır, "T" - torpaq, dostluq münbit olmalıdır. Şoran torpaqlara toxum əkmək olmaz, onu münbit torpağa əkərsən. Nə əkərsən o da bitər. İndi əsl dostu tapmaq çətindir. Dostluq, möhkəmlənməli, əvvəlki illərin dəyərini zənginləşdirməlidir. Elm isə daim inkişaf edir və etməlidir, bu danılmazdır. Ancaq elmin və mütərəqqi texnologiyaların yüksək səviyyəyə çatmasına baxmayaraq, təəssüf ki, insanlar əvvəlki dövrlə müqayisədə dönük olublar. Bir məsələyə də xüsusi olaraq toxunmaq istərdim. Unutmaq olmaz ki, tərbiyə dinin yarısıdır, əxlaqın gülü-çiçəyidir. Peyğəmbərimiz (s.ə.s) deyirdi ki,

*Atadan-anadan böyük hədiyyə*
*Qalacaqdır ancaq düzgün tərbiyə.*

Lakin bəzi ölkələrdən bizə gələn yad dəyərlər, tufanlar insanları əsrlər boyu formalaşmış milli dəyərlərimizdən uzaqlaşdırır. Deyirlər, insan dünyanın əşrəfidir. Unutmamalıyıq ki, dünyanın əşrəfi, ilk növbədə, əql və əxlaqdır. Çoxları həyatları boyu öz var-dövlətini qoruyur, düşünürlər ki, bu, hər şeydən üstündür. Lakin unudurlar ki, insanın ən böyük sərvəti onun ağlı və əxlaqıdır. Bunu hər zaman yadda saxlamalıyıq. İnsanın bədəni də, ruhu da saf olmalıdır:

Təəssüflər olsun ki, bu mövzuda kütləvi informasiya vasitələrində gedən materiallara nadir hallarda rast gəlirik. Bu da məni bir ziyalı olaraq çox narahat edir.

**—Bu il Bakı Dövlət Universitetinin 100 yaşı tamam olur. Siz 50 ildir ki, bu təhsil ocağında çalışırsınız. Bir əsrə bərabər yubiley və yarım əsr yubiley tarixləri - hər iki tarixi günü necə dəyərləndirərdiniz?**

—Sualınızın cavabına bir qədər uzaqdan başlayacağam. Dünyada beş min dildə danışan millət var, ancaq onların yalnız 200-dən bir qədər artığı müstəqildir. Biz ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidi ilə hakimiyyətə yenidən qayıtması nəticəsində öz dövlətçiliyimizi qoruya bildik, dünyada müstəqil ölkə kimi tanındıq. Bu gün Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasındadır.

Ulu öndərin xalqımızın qarşısında ən birinci xidməti, onun şah əsəri olan, günü-gündən çiçəklənən müstəqil Azərbaycandır. İkinci xidməti isə özünün layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyev kimi müasir lideri yetişdirməsidir.

Müstəqil Azərbaycanımızın təhsil sistemində müstəsna rol oynayan Bakı Dövlət Universitetinin inkişafını və nailiyyətlərini də mən məhz ümummilli liderimizin fəaliyyəti ilə əlaqələndirirəm. İstiqlalımızın yüz illiyi Bakı Dövlət Universitetinin yüz illiyi ilə, demək olar ki, üst-üstə düşür. Bunlar bir beşikdə yatan iki körpə timsalındadır. Onların inkişafı paralel xətt kimidir. Heydər Əliyev demişdir ki, Bakı Dövlət Universiteti Azərbaycan xalqının milli sərvətidir. Müstəqil Azərbaycanın və Universitetin 100 illiyi qartalın iki qanadına bənzəyir.

Ulu öndərimiz 1993-cü ildə hakimiyyətə qayıdanda ölkəmizin büdcəsində vəsait az, dövlətin xəzinəsi boş idi. Ancaq indi Azərbaycan özünün üçüncü peykini orbitə buraxdı ki, bu da hər dövlətə nəsib olan nailiyyət deyil. Bu, böyük fəxrdir ki, ümummilli liderimiz kimi dünya miqyaslı böyük siyasi-ictimai xadim bu universitetdə təhsil almışdır.

Bakı Dövlət Universiteti iyirmi il bundan əvvəl belə inkişaf etməmişdi.

Qısa müddət ərzində respublikamızın bu şöhrətli ali təhsil müəssisəsində böyük dəyişikliklərə səbəb olmuş - quruculuq işləri aparılmış, dünya dövlətlərinin elm və təhsil ocaqları ilə hərtərəfli geniş əlaqələr qurulmuşdu. Universitet sanki yenidən quruldu, dünya səviyyəsinə qaldırıldı. Bu gün dünyada aparıcı universitetlərin siyahısında 2000-dən artıq universitetin adı var. İyirmi il bundan əvvəl Bakı Dövlət Universitetinin adı ümumiyyətlə, həmin siyahıda yer almamışdı. Bu gün universitetimiz 500-600 ən qabaqcıl dünya universitetləri sırasındadır.

Universitetimiz yeni inkişaf mərhələsinə qədəm qoyur. Mən əminəm ki, BDU-nun inkişafı bundan sonra da uğurla davam etdiriləcək, universitetimiz daha böyük zirvələri fəth edəcəkdir.

**Müsahibəni hazırladı:**
**Emin QASIMOV,**
**"Respublika".**